DOI: https://doi.org/10.36719/2706-6185/55/22-27

**Arzu Xəlilzadə**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-4221-7808
arzuxelilzade89@gmail.com

# Azərbaycanda sənaye, rabitə və kommunikasiya sahələrinin modernləşməsi istiqamətində dövlət siyasəti (2003–2020-ci illər)

## Xülasə

Məqalədə 2003–2020-ci illər ərzində Azərbaycan Respublikasında sənayenin, rabitənin və kommunikasiya sahələrinin inkişafı istiqamətində aparılan dövlət siyasətinin tarixi inkişaf mərhələləri araşdırılmışdır. Bu dövrdə həyata keçirilmiş iqtisadi islahatlar, sənaye parklarının yaradılması, iqtisadiyyatın şaxələndirilməsi siyasəti, qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və onların sənayeyə tətbiqi və rabitə infrastrukturunun müasir tələblərə uyğun olaraq təkmilləşdirilməsi məsələləri araşdırılmışdır.

Məqalədə tədqiq edilən dövrdə iqtisadiyyatın mühüm sahələrində həyata keçirilmiş tədbirlər, müxtəlif fəaliyyətlər, qanunvericilik bazası tarixi ardıcıllıqla təhlil edilmiş, sənaye-rabitə sektorunun dövlət siyasətində tutduğu yer elmi kontekstdə araşdırılmışdır.

Məqalədə müvafiq sahələrin araşdırılması dövlətin iqtisadi inkişaf xəttinin tarixi nəticələrini izləməyə imkan verir və onları ortaya qoyur. İnformasiya-kommunikasiya texnologiyaları, rabitə sahəsində atılan addımlar, normativ-hüquqi aktların qəbul edilməsi, Azərbaycanın qlobal rəqəmsallaşma proseslərində fəal iştirakı, bu sahədə respublikada müxtəlif strategiyaların qəbul edilməsi və s. məsələlər araşdırılmışdır.

Müəllif belə bir nəticəyə gəlmişdir ki, sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsi, modernləşməsi və insanların bu sahələrdə əlverişli fəaliyyətini təmin etmək üçün müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiq edilməsi, sənaye və rabitə sistemlərinin qarşılıqlı əlaqəsi və inteqrasiyası vacibdir.

***Açar sözlər:*** *sənaye siyasəti, rabitə-kommunikasiya, modernləşmə, regional inkişaf, dövlət proqramları*

**Arzu Khalilzade**
Baku State University
PhD in History
https://orcid.org/0009-0006-4221-7808
arzuxelilzade89@gmail.com

# State Policy Towards Modernization of Industry, Telecommunications and Communication Sectors in Azerbaijan (2003–2020)

## Abstract

The article examines the historical stages of development of state policy towards the development of industry, communications and communication sectors in the Republic of Azerbaijan during 2003–2020. The economic reforms implemented during this period, the creation of industrial parks, the policy of economic diversification, the steps taken towards the development of the non-oil sector, the

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

development of information and communication technologies and their application to industry, and the improvement of communication infrastructure in accordance with modern requirements were examined.

The article analyzes the measures, various activities, and legislative framework implemented in important areas of the economy during the period under study in a historical sequence, and examines the place of the industrial and communications sector in state policy in a scientific context.

The study of relevant areas in the article allows us to trace and reveal the historical results of the state's economic development path. Information and communication technologies, steps taken in the field of communications, the adoption of regulatory and legal acts, Azerbaijan's active participation in global digitalization processes, the adoption of various strategies in the republic in this area, etc., issues are examined.

The author came to the conclusion that the application of modern information and communication technologies, the interaction and integration of industrial and communication systems are important for the development and modernization of various sectors of industry and for ensuring the favorable activities of people in these areas.

***Keywords:*** *industrial policy, communications and communications, modernization, regional development, state programs*

## Giriş

2003–2020-ci illərdə Azərbaycanda sosial-iqtisadi sahədə aparılan məqsədyönlü dövlət siyasəti nəticəsində ölkənin sənaye-infrastruktur sistemi əsaslı şəkildə inkişaf etmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkənin sənayeləşmə strategiyasında yeni model formalaşdırılmış, regional inkişaf proqramlarının qəbul edilməsi ilə sənaye və rabitə sahələrinin bütün strukturları daha da təkmilləşdirilmişdir. Bu siyasətin həyata keçirilməsi ilə iqtisadi inkişaf sürətlənmiş, dövlət idarəçiliyində rəqəmsal transformasiya baş vermişdir.

Azərbaycanın sənaye tarixində neft-qaz resursları mühüm əhəmiyyət daşısa da, tədqiq edilən illərdə ən mühüm məsələlərdən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda davamlı inkişafa nail olmaq idi. Azərbaycan bu dövrdə qlobal dünyada ən aktual sahələrdən olan telekommunikasiyanın və informasiya texnologiyalarının inkişafı istiqamətində mühüm nailiyyətlər əldə etdi. İqtisadiyyat və sənayenin bütün sahələrinin rəqəmsallaşdırılması mühüm vəzifələr olaraq müəyyənləşdirildi. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) müxtəlif sahələrdə tətbiq edilməsi dövlətlər və xalqlar arasında zaman və məkan fərqlərini aradan qaldırdı. İKT-nin son nailiyyətlərinin rabitə, təhsil, səhiyyə, biznes, turizm və bank-maliyyə və idarəetmə sahələrində tətbiq edilməsi cəmiyyətin hər bir üzvünə müasir imkanlardan faydalanmağa şərait yaratdı.

Azərbaycanda telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev bu sahənin inkişafının zəruriliyinə diqqət yetirərək telekommunikasiya, rabitə sektorunun inkişafının Azərbaycanın iqtisadi, humanitar əlaqələrinin və bütün dünya dövlətləri ilə münasibətlərinin, Azərbaycan Respublikasının həyata keçirdiyi siyasətin dünyada tanıdılması baxımından əhəmiyyətli olması qənaətində idi ("Azərbaycanın sürətli inkişafında rabitə və informasiya texnologiyaları sektorunun mühüm rolu", 2008). Ümummilli lider Heydər Əliyevin birbaşa köməyi ilə Azərbaycana ilk böyük elektron hesablama maşını – BESM-6 gətirilmişdi. Bu addım sonradan idarəetmədə ilk tətbiqlərdən olan avtomatlaşdırılmış idarəetmə sistemini – "RASU Azərbaycan"ı yaratmağa və iqtisadiyyatda müxtəlif məsələlərin avtomatlaşdırılmış həllinə imkan verdi. Daha sonra Azərbaycanda kompüter şəbəkəsi, akademşəbəkə, bütün SSRİ-də tanınan və istifadə olunan avtomatlaşdırılmış neftçıxarma idarəetmə sistemləri və kompleksləri yaradıldı, universitetlərdə İKT ixtisasları üzrə mütəxəssislərin hazırlanması məqsədilə maddi-texniki baza formalaşdırıldı.

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Ümummilli lider Heydər Əliyevin səyi nəticəsində ölkə iqtisadiyyatında ilk xarici investisiyalar məhz telekommunikasiya sahəsinə yatırıldı. 1994-cü ildə "Baksell" və 1996-cı ildə "Azərsell" birgə müəssisələrinin yaradılması ilə Azərbaycanda

mobil rabitənin inkişafının əsası qoyuldu ("Azərbaycanın sürətli inkişafında rabitə və informasiya texnologiyaları sektorunun mühüm rolu", 2008).

Bu baxımdan sənaye və rabitənin inkişafı və qarşılıqlı əlaqəsini nəzərə alaraq mövzunun araşdırılması aktualdır və İKT-nin bütün sahələrə tətbiq edildiyi şəraitdə onun iqtisadiyyatın müxtəlif sahələrinin modernləşməsində əhəmiyyətinin öyrənilməsi son dərəcə vacibdir.

**Tədqiqat**

2003-cü ildə Prezident İlham Əliyev hakimiyyətə gəldikdən sonra sənayenin inkişafı sahəsində mühüm addımlar atılmış və strateji xətt müəyyənləşdirilmişdir. Bununla da sənayenin inkişaf tarixində yeni bir mərhələ başlamışdır. Sənaye siyasətində yeni inkişaf mərhələsi 2004-cü ildə qəbul edilmiş "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004–2008)" ilə başlanmışdır (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2004). Bu proqramda dövlətin sənaye potensialının, qeyri-neft sektorunun inkişafı və regionlarda yeni istehsal sahələrinin yaradılması mühüm prioritetlər kimi müəyyən olunmuşdur.

Sənayenin inkişafı sahəsində qanunvericilik bazasının zənginləşdirilməsi prosesi sonrakı illərdə də davam etdirilmişdir. Tədqiq edilən illərdə sənayenin modernləşdirilməsi məqsədilə 2009–2013 və 2014–2018-ci illəri əhatə edən dövlət proqramları qəbul edilmişdir (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2009; Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2014). Bu proqramlar sənayenin coğrafi baxımdan strukturunun genişlənməsinə, regional sənaye mərkəzlərinin yaradılmasına təkan vermiş, sənaye parklarının yaradılması ölkənin sənaye xəritəsini yenidən formalaşdırmışdır.

Tədqiq edilən illərdə qeyri-neft sektoru gücləndirilmiş, 2014–2020-ci illərdə bu sahədə real artım 40 faizdən çox olmuşdur (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2020). Qeyd edək ki, bu göstərici ölkənin iqtisadi inkişaf tarixində mühüm dönüş nöqtəsi olmuş və sənayeləşmənin yalnız neft gəlirlərindən asılı olmadığını sübut etmişdir.

Tədqiq edilən illərdə rabitə və informasiya-kommunikasiya texnologiyaları (İKT) Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynamış və ölkənin rəqəmsal transformasiya prosesinin əsasını təşkil etmiş, bu inkişaf özünü müəyyən göstəricilərdə tapmışdır. Məsələn, 2003-cü ildə ölkədə genişzolaqlı internet şəbəkəsi məhdud şəkildə mövcud idisə, 2020-ci ildə internet istifadəçilərinin sayı 80 faizi keçmişdir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2021). Bu artım Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasında həlledici olmuşdur.

"Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)" bu sahənin sürətli inkişafına güclü təkan vermişdir. Cənubi Qafqazda ilk dəfə olaraq qəbul edilmiş bu qlobal strategiya Azərbaycanın İKT sahəsinə xüsusi diqqətini cəmiyyətə və bütün dünyaya bəyan etdi. Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)" respublikada İKT sahəsində yeni bir mərhələnin əsasını qoydu. İnnovasiyalara əsaslanan İKT sektorunun inkişaf etdirilməsi ilə bağlı strategiya Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilmişdir (Bayramlı, 2025).

Təsadüfi deyildi ki, Prezident İlham Əliyevin ilk beynəlxalq səfəri 2003-cü il dekabrın 12-də Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirakla bağlı olmuşdur. Sammitdə "Qara qızılı insan qızılına çevirək" tezisini səsləndirməklə Prezident İlham Əliyev ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsinin əsasının qoyulduğunu bütün dünyaya bəyan edərək informasiya cəmiyyətinin qurulması istiqamətində dövlət səviyyəsində məqsədyönlü işlərə başladı ("Azərspace 2" peykinin orbitə çıxarılması tarixi qələbəmizdir", 2018).

Azərbaycanda 2009-cu ildə 3G şəbəkəsi, 2012-ci ildə 4G LTE şəbəkəsi, 2019-cu ildə isə 5G sınaqları – mobil rabitə şəbəkəsi inkişaf etmişdir. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiqlənən Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005–2008-ci və 2010–2012-ci illəri əhatə edən dövlət proqramları İKT sektorunun inkişafında güclü hüquqi baza yaratmışdır. İnformasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli

Strategiyanın qəbul edilməsi və s. sənədlər dövlətin bu sahədə siyasətinin ardıcıl xarakter daşımasının göstəricisi idi (Bayramlı, 2025).

Prezident İlham Əliyevin gələcəkdə dövlətin inkişafı ilə bağlı həyata keçirdiyi kursunun tərkib hissələrindən biri qlobal çağırışlara cavab olaraq Azərbaycanın informasiya məkanını süni intellekt və rəqəmsal texnologiyaların imkanları ilə təmin etmək, bu sahədə strateji baxış ortaya qoymaqdır. Bu məqsədə çatmaq üçün Prezident İlham Əliyev 2025-ci ilin mart ayında "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nı təsdiq etdi. Sənəddə qeyd olunurdu ki, dünyanın digər dövlətlərində olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyalarının tətbiq edilməsi ölkənin sosial-iqtisadi inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Strategiyada göstərilirdi ki, süni intellektin idarəçilik, müdafiə, təhlükəsizlik, iqtisadi, sosial, təhsil, səhiyyə və digər sahələrə ciddi dəyişikliklər gətirəcəyi, bununla əlaqədar yaranacaq çağırışlar və təhdidlər nəzərə alınaraq süni intellekt üzrə milli strategiyanın hazırlanması zəruridir (Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası, 2025).

Tədqiq edilən illərdə Azərbaycanda Beynəlxalq Telekommunikasiya İttifaqının tövsiyələri nəzərə alınmış, rəqəmli yayıma keçid təmin edilmişdir. Əhali radio-televiziya verilişlərini daha keyfiyyətli izləmə imkanı əldə etmiş, poçt və telekommunikasiya sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, infrastrukturun müasirləşdirilməsi, kadr potensialının artırılması, bu sahədə fəaliyyətin liberallaşdırılması istiqamətində də ardıcıl işlər həyata keçirilmişdir.

Azərbaycanda İKT sahəsində ən böyük nailiyyətlərdən biri regionda kosmos sənayesinə sahib yeganə dövlət olmasıdır. Prezident İlham Əliyevin 2009-cu ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi və həyata keçirilməsi nəticəsində dövlətin ilk peyki olan və dünyanın üçdəbirini əhatə edən "Azerspace-1" orbitə çıxarıldı. Beləliklə, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafında dövlətin kifayət qədər maraqlı olduğunu nümayiş etdirdi (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 2013).

2013-cü ildə "Azərspace-1", 2018-ci ildə isə "Azərspace-2" peyklərinin orbitə çıxarılması Azərbaycanın rabitə tarixində yeni mərhələnin əsasını qoymuş, Azərbaycanı regionda peyk xidmətləri göstərən nadir dövlətlərdən birinə çevirmiş, milli informasiya mühitinin təhlükəsizliyini təmin etmişdir ("Azərspace 2" peykinin orbitə çıxarılması tarixi qələbəmizdir, 2018).

Azərbaycanda və Cənubi Qafqazda ilk peyk operatoru olan "Azərkosmos" ölkədə teleradio yayım və telekommunikasiya xidmətlərinin göstərilməsi, tələblərə cavab verən yüksək etibarlı rabitə platformalarının təmin edilməsi istiqamətində iş apardı (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 2013).

Tədqiqat göstərir ki, Azərbaycanda "elektron hökumət"in formalaşdırılması istiqamətində də mühüm addımlar atılmış və informasiya texnologiyalarından istifadə məmur-vətəndaş münasibətlərinin sadələşdirilməsini, şəffaflığı təmin etmiş, bürokratik əngəlləri aradan qaldırmışdır. "Elektron hökumət" portalının yaradılması ilə dövlət orqanları arasında informasiya mübadiləsi asanlaşmış, elektron imzadan istifadə üçün infrastruktur təkmilləşdirilmişdir ("Azərbaycanda telefon rabitəsinin yaradılmasından 136 il ötür", 2017).

2003–2020-ci illərdə Azərbaycanda dövlət idarəçiliyinin həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün tarixi islahatlar həyata keçirilmişdir.

Bu sahədə ən mühüm islahatlardan biri səmərəli nəticələr verən "ASAN xidmət" modelinin yaradılması idi. 2012-ci ildə fəaliyyətə başlamış "ASAN xidmət" modelinin tətbiqi ilə dövlət-vətəndaş münasibətlərində yeni mərhələ açılmış, xidmətin şəffaflaşdırılması və operativləşdirilməsi istiqamətində mühüm təkmil xidmət formalaşmışdır.

Beləliklə, Azərbaycanda "Rəqəmsal ölkə" strategiyasının qəbul edilməsi informasiya-kommunikasiya texnologiyalarının dövlət idarəçiliyinin ayrılmaz hissəsinə çevrildiyini göstərmiş, rəqəmsal transformasiyanın əsası qoyulmuşdur.

Azərbaycanda sənaye və rabitə siyasətinin qarşılıqlı inteqrasiyası rəqəmsal transformasiya, sənayenin müasir standartlara cavab verməsi və iqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. İki sahənin əlaqəsi ondan ibarətdir ki, burada rabitə sisteminin təkmilləşdirilməsi sənaye müəssisələrinin məhsuldarlığını artırır, yeni texnologiyaların tətbiqini labüd edir, Azərbaycanın logistika və tranzit daşımalarda rolunu artırır, onu nəqliyyat qovşağına çevirir. Bu proseslərin baş verməsi isə ölkədə sənayenin inkişafına səbəb olur.

Sənaye ilə rabitə sektorunun qarşılıqlı əlaqəsi Azərbaycanda yeni iqtisadi modelin formalaşmasına şərait yaratmışdır. Rabitə və sənaye sahələrinin qarşılıqlı inteqrasiyası özünü sənayenin rəqəmsal idarəedilməsi, nəqliyyat-logistika sisteminin rəqəmsallaşdırılması, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin hazırlanması və işğaldan azad edilmiş ərazilərdə tətbiq edilməsində özünü göstərmişdir. Bu proseslər həm sənayenin səmərəliliyini artırmış, həm də ölkənin tarixi-iqtisadi inkişaf istiqamətlərini dəyişmişdir.

Ümumiyyətlə, tədqiqat göstərir ki, sənayenin inkişafı üçün internetin sürətli olması, davamlı enerji və telekommunikasiya xidmətlərinin təhlükəsizliyi əsas şərtdir. Hər iki sahədə həyata keçirilən siyasət bir-birini tamamlayaraq iqtisadiyyatın modernləşməsinə, rəqabət qabiliyyətinin artırılmasına və dayanıqlı inkişafa xidmət edir.

Tədqiqat göstərir ki, bütün müsbət tendensiyalarla yanaşı, Azərbaycanda sənayenin inkişafına mane olan bir sıra amillər də mövcuddur: İlk növbədə, Azərbaycanın zəngin neft-qaz resurslarına malik olması sənaye münasibətlərinin formalaşmasına təsir edib. Bu münasibətlərin inkişafı məhz neft hasilatından başlayıb. Ölkənin sosial-iqtisadi inkişafının əsasında məhz neft-qaz sənayesi dayanıb.

Sənayenin inkişafına təsir göstərən əsas amillərdən biri 1920–1991-ci illər ərzində Azərbaycanın SSRİ-nin tərkibində olması, qapalı iqtisadiyyata əsaslanan inkişafı, iqtisadi sahədə sərt inzibati idarəetmə sisteminə malik olması, sahibkarlığın və rəqabət mühitinin olmaması da müstəqilliyin bərpasından sonra ölkədə bazar münasibətlərinə əsaslanan milli sənayenin yaradılmasında ciddi problemlər yaratmışdır. Həmin dövrdə Azərbaycanın sənayesi imperiyanın sənaye maraqlarına xidmət edirdi. SSRİ dağıldıqdan sonra sənaye müəssisələri arasında iqtisadi əlaqələrin qırılması nəticəsində həmin müəssisələr öz fəaliyyətlərini dayandırdı.

Cəmiyyətin inkişaf səviyyəsi, sosial-siyasi və mədəni, demoqrafik amillər də buna təsir göstərir.

Bu amillərə həmçinin ölkənin ticarət əlaqələri, infrastrukturu, elmi-texniki amillər və dünyada baş verən proseslər də təsir göstərir ("Azərbaycan sənayesinin struktur problemləri: səbəbləri və həlli yollarına dair Araşdırma Sənədi", 2021).

2012-ci ilin dekabrın 29-da Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd edilirdi ki, qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir ("Azərbaycan sənayesinin struktur problemləri: səbəbləri və həlli yollarına dair Araşdırma Sənədi", 2021).

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Həmin Dövlət Proqramında sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması əsas məqsədlər kimi müəyyən edilmişdir ("Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı", 2014).

## Nəticə

Tədqiqatdan aydın olur ki, 2003–2020-ci illər Azərbaycanda sənaye, rabitə və kommunikasiya siyasətinin inkişafı baxımından tarixi əhəmiyyət daşıyan dövr olmuşdur. Bu dövrdə həyata keçirilmiş dövlət proqramları sənaye istehsalının yeni strukturunu formalaşdırmış, kommunikasiya və

informasiya sisteminin modernləşməsi isə ölkənin iqtisadi idarəçiliyində yeni mərhələ yaratmışdır. Dövlətin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan regional sənaye və rabitə mərkəzinə çevrilmiş, milli iqtisadiyyatın daha dayanıqlı və innovativ əsaslarla möhkəmləndirilməsi üçün mühüm addımlar atılmışdır. Sənaye və rabitə sistemində rəqəmsallaşmanın həyata keçirilməsi, işğaldan azad edilmiş Qarabağda yaşayış yerlərinin, şəhərlərin, kəndlərin salınmasında, sənaye müəssisələrinin yaradılmasında dünyanın qabaqcıl təcrübəsindən istifadə edilməsi Azərbaycanın da müasir texnoloji inkişaf proseslərinə uyğunlaşdığını və bu proseslərin inkişafına töhfə verməyə hazır olduğunu göstərir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2009). “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. https://files.preslib.az/projects/regions/r2/a1.pdf
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (11 fevral 2004). “Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. https://e-qanun.az/framework/4797
3. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. (2014). https://e-qanun.az/framework/27284
4. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2014). https://e-qanun.az/framework/ 27284
5. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. (26 dekabr 2014). https://e-qanun.az/framework/28964
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2021). İnternet istifadəçilərinin sayı. https://www.stat.gov.az/source/ demoqraphy/au/az/u002_ 37.xls
7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (2020). 2020-ci il üzrə qeyri-neft sektorunun inkişafı. https://economy.gov.az/storage/files/files/678/MemNDeMHOQf2r2ncqZH4OPbQpwU R7bAcY ky4BgrC.pdf
8. Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası. (19 mart 2025). https://president.az/az/articles/view/68365
9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. (2013). *İlham Əliyev Azərbaycanın ilk “Azərspace-1” telekommunikasiya peykinin orbitə buraxılması prosesini izləmişdir.* https://president.az/az/articles/view/7257
10. Azərbaycan sənayesinin struktur problemləri: səbəbləri və həlli yollarına dair Araşdırma Sənədi. (2021). https://www.idi-aze.org/files/pdf/2025-01-08/sYlhTYnos9JapZ3cnKvvTdi43Zt0NNYCOOTIIXxH.pdf
11. *Azərbaycanda telefon rabitəsinin yaradılmasından 136 il ötür.* (2017). https://kaspi.az/az/azerbaycanda-telefon-rabitesinin-yaradilmasindan-136-il-tur
12. *Azərbaycanın sürətli inkişafında rabitə və informasiya texnologiyaları sektorunun mühüm rolu. (2008, November 25). Rabitə dünyası,* 8–12. https://anl.az/down/medeniyyet2008/noyabr/medeniyyet2008_noyabr_147.htm
13. *Azərspace 2” peykinin orbitə çıxarılması tarixi qələbəmizdir*. (2018). https://ikisahil.az/post/107665-news-107665
14. Bayramlı, N. (2025). *Rəqəmsal inkişaf və yeni texnologiyalar.* https://www.yeniazerbaycan.com/YeniTexnalogiyalar_e126369_az.html

Daxil oldu: 05.09.2025
Qəbul edildi: 27.12.2025